


*Qazax qədim Oğuz torpağıdır. Alp-ərənlər yurdudur. Bir tərəfi Dilcan dərəsi, Göyçəgölü, Günən və Babakərə söykənən, bir tərəfi Təpəgöy çayını, Sınıq körpünü keçib Borçalı ellərinə qovuşan, bir tərəfi də Ceyrançölü hərlənib Tovuz və Şəmsəddin torpağına söykənən sazlı-sözlü, nağıllı-dastanlı, hünərli-qeyrətli Qazax mahalı!*

Dünya yaranandan ən qədim yaşayış məskənlərindən biri. Burada aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş yaşayış məskənləri 5 min il bundan əvvələ aid edilir. Bu ərazidə qədim Xalxal şəhəri olub. Gəncəyə və Şirvana, Şəkiyə və Qəbələyə, Təbrizə və Ərdəbilə, Tiflisə və Dərbəndə karvan yolları burdan keçib.

Qədim tarixə və keçmişə malik Qazax mahalı hər cəhətdən zəngindir. İstər flora və faunasına görə, istər coğrafi cəhətdən strateji əhəmiyyətli mövqedə yerləşməsinə görə, istərsə də elm, maarif, mədəniyyət, ədəbiyyat, incəsənət, hərb sahəsində yetişdirdiyi tarixi şəxsiyyətlərinə görə. Bunu biz rayon mərkəzindəki tarix-diyarşünaslıq muzeyinin timsalında daha aydın görə bilərik.

Şərq üslubunda tikilmiş, milli ornamentli muzey 20 ildən çoxdur ki, qapılarını geniş ictimaiyyətin üzünə

açıb. Muzey ulu keçmişimizdən, mədəniyyət tariximizdən, ata-babalarımızın nələrə qadir olduğundan söz açır. Bu günümüzlə keçmiş arasında pəncərə rolunu oynayır. Muzeydə Roma sərkərdəsi Qney Pompeyin Qafqaza yürüşü, ərəb qoşunlarının Azərbaycana hücumu, Azərbaycanda islam dininin yayılması, Qazağın ərəb istilasına qarşı müqaviməti, VII əsr alban hökmdarı Cavanşirin hökmdarlığı, Babək hərəkatı, Azərbaycanda Atabəylər dövlətinin yaranması, Səfəvilər dövlətinin meydana gəlməsi, Şah İsmayıl Xətai dövrü, Nadir şah rejimi, Azərbaycanda xanlıqlar, Gülüstan-Türkmənçay sülh müqavilələri, Azərbaycanın Rusiyaya birləşməsi, Oktyabr inqilabından əvvəlki və sonrakı illər, Azərbaycanda cümhuriyyət, sosializm quruluşu və kommunist rejimi, ən nəhayət Azərbaycan Müstəqillik illərində və s. sənədlərin dili ilə aydın əks etdirilmişdir.

Muzey zəngin tərtibatlı 7 salondan və 3 bölmədən ibarətdir. Hazırda muzeyin fondunda 2500 eksponat vardır.

Birinci salonda rayonumuzun relyef xəritəsi asılıb. Eyni zamanda rayonumuzun tarixi abidələrinin maketi verilib. Didevan qalası, Sınıq körpü, Göyəzən dağı, Avey dağı, Damcılı mağarası, Kazım ağa və Qatır körpüləri, Alban məbədi və mağaralar, Əskipara qalası, Koroğlu qalası, Xalxal şəhəri, Baba Dərviş... Neçə-neçə qədim qəbirlər, pirlər, ehramlar, məscidlər, günbəzlər, məbədlər, kurqanlar və s. abidələr xalqımızın uzaq keçmişinin yadigarı, dünənimiz, bu günümüz və sabahımızdır.

Bu tarix və mədəniyyət abidələri "Avey" Dövlət qoruğu tərəfindən qorunub mühafizə edilir.

Tarixçilər Qazaxdakı Didevan qalasının eramızdan əvvəl I minillikdə tikildiyini deyirlər.

100 milyon yaşı olduğu söylənən Göyəzən dağı nadir geoloji təbiət abidəsidir. Vulkan püskürməsi nəticəsində əmələ gəlmişdir. Ölməz şairimiz Səməd Vurğun əzəmətinə və vüqarına görə ona "Göylərə baş çəkir Göyəzən dağı" demişdir.

Yenə söz bahadırı, milli iftixarımız Səməd Vurğunun sözləridir ki, "Damcılı" bulağı dünyanın 8-ci, Azərbaycanın 1-ci möcüzəsidir. Bu bulaq çox-çox əvvəl, daş dövründə əmələ gəlmişdir. Təbiətin nadir sərvəti, qiymətli abidəsidir.

Deyilənə görə Sınıq körpünün 1500 il bundan əvvəl Sasanilər dövründə Qafqaz Albaniyasının çiçəkləndiyi əyyamda tikildiyi ehtimal olunur. Bu körpü Qazax elləri ilə Borçalını, bir sözlə Azərbaycanla Gürcüstanı birləşdirir.

Qafqaz Albaniyasının qərbində Xalxal şəhərinin olduğu güman edilir. Tarixçilər həmin şəhərin indiki Qazax rayonunun ərazisində olduğunu söyləyirlər. Şəhərin yaranma tarixi 5-ci əsrə aid edilir.

Muzeydə 2-ci salonda kəndli komasının rəmzi, öküz arabası, xana toxumaq üçün dəzgah, yun darağı, hüvə, kirkit, qayçı, xana qılıncı və s. nümayiş etdirilir.

Ulu nənələrimizin, qız-gəlinlərimizin toxuduqları gəvələr, cecimlər, kilimlər, farmaşlar, heybələr, xurcunlar, corablar, tikmələr muzeyin bəzəyidir. Atçılığa aid ləvazimatlar yəhər, yüyən, at nalı, milli kişi və qadın geyimləri, bəzək və ziynət əşyaları, qədim təsərrüfat alətləri, ailə və məişətdə işlədilən çıraq, sərnic, cəhrə, kirkirə daşı, nehrə, tərəzi, dolça, səhəng, kuzə, mis qablar və s. keçmişi xəyalən gözlərimiz qarşısında canlandırır.

Muzeydə qədim pullara, milli musiqi alətlərinə də maraqla tamaşa edilir.

Üçüncü salonda tamaşaçılar Qazağın şanlı-şöhrətli, adlı-sanlı adamları İsrafil ağa Kərbalayev, məşhur inqilabçılar Səməd ağa Ağamalıoğlu, Muxtar Hacıyev, Səyalı Kosayeva, Şahnabat Nəsibova haqqındakı sənədlərlə, fotolarla, Qori Müəllimlər Seminariyasının qazaxlı məzunları ilə yaxından tanış olurlar. Sənəd və materiallara baxdıqca "Rus Artilleriyasının Allahı" tam artilleriya generalı, dünya şöhrətli sərkərdə Əlağa Şıxlinski, onun həyat və məslək yoldaşı, ilk azərbaycanlı hərbi şəfqət bacısı Nigar xanım, Zaqafqaziyanın ilk müftisi Mirzə Hüseyn Əfəndi Qayıbov, Zaqafqaziyada ilk pedoqoji elmlər doktoru, professor Əhməd Seyidov, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin ilk sədri, respublikanın ilk Konstitusiyasını imzalayan Muxtar Hacıyev, ilk topoqrafiya generalı İbrahim ağa Vəkilov, ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbov, İtaliyanın Milli Qəhrəmanı, "Serafino" ləqəbli Tahir İsayev, ictimai-siyasi xadim, kənd təsərrüfatı üzrə mütəxəssis Möhsün Poladov kimi görkəmli tarixi şəxsiyyətlərlə haqlı olaraq fəxr edirsən.

1941-1945-ci illər Böyük Vətən Müharibəsində qəhrəmanlıq göstərən igid həmyerlilərimizin fotoşəkilləri muzeyi bəzəyir. 416-cı Taqanroq atıcı diviziyasının keçdiyi şanlı döyüş yolunu göstərən xəritə, əsgər məktubları, komsomol biletləri, fotoşəkillər və s. diqqəti cəlb edir. Marşal Budyonnunun süvari ordusunda göstərdiyi xidmətlərə görə həmyerlimiz Qədir Hüseynova bağışladığı döyüş qılıncı da bu gün qiymətli eksponat kimi muzeydə saxlanılır.

Qafqaz qartalı Qaçaq Kərəmin toy günü öz bacısına bağışladığı çıraq da bu gün muzeydədir.

Böyük Səməd Vurğunun sözləridir ki, "Azərbaycan şer yurdudur. Qazaxda hər evdən bir şair çıxır". Həqiqətən də Qazax şer-sənət beşiyi, şairlər vətənidir. Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Əbdülrəhman ağa Dilbazi, Abdulla bəy Divanbəyoğlu, Kazım ağa Salik, Mustafa ağa Arif, Mirzə Səməd, Yəhya bəy Qazağı, Şərif Şikəstə, Rəncur, Hacıkərim Sanılı, İsmayıl Katib Azərbaycanın klassik şairləridir. Hamısı Qazax torpağında dünyaya göz açıblar.

Muzeydə XX əsr Azərbaycan poeziyasının ən qüdrətli simalarından biri, Azərbaycanın ilk xalq şairi, Azərbaycan Milli Elmlər Akademiyasının ilk akademiki, iki dəfə Dövlət Mükafatı laureatı, görkəmli ictimai-



siyasi xadim Səməd Vurğuna zəngin guşə həsr olunmuşdur.

Qazax torpağı Azərbaycan ədəbiyyatına xalq şairləri Osman Sarıvəlli, Mirvarid Dilbazi, Vaqif Səmədoğlu, xalq yazıçıları Mehdi Hüseyn, İsmayıl Şıxlı, Yusif Səmədoğlu, Vidadi Babanlı kimi görkəmli yazarlar bəxş etmişdir.

Qazax eyni zamanda elm, maarif ocağıdır. Qazaxdan çıxmış akademiklər, professorlar, alimlər, pedaqoqlar ürfan çırağına dönüb elmin nurunu, işığını, ziyasını el-el, oymaq-oymaq yaymışlar.

Görkəmli pedaqoq, yazıçı və alim Firudun bəy Köçərlinin böyük səyi nəticəsində 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazağa köçürülmüşdür. Qazağın maariflənməsində, savadlanmasında seminariyanın böyük rolu olmuşdur. Bunu biz muzeydə yaradılmış "Qazax Müəllimlər Seminariyası - 80" guşəsindən də aydın görə bilərik.

Mədəniyyət və incəsənət xadimlərindən "Rəqs şahzadəsi", xalq artisti Əminə Dilbazi, sənətşünas alim, kino aktyoru, xalq artisti Həmidə Ömərova, Əməkdar İncəsənət xadimi, prezident təqaüdçüsü, saz ustası Aşıq Ədalət Nəsibov və b. haqqında sənədlər, fotolar, kitablar muzeyə gələnlərin xüsusi marağına səbəb olur.

Muzeydə müstəqil ADR-in öndəri M.Ə.Rəsulzadənin portreti önündə tariximizin 1918-20-ci illərinin bəzi məqamlarına aid fotolar və tarixi faktlar öz əksini tapmışdır.

Qazax mahalı öz Dilbaz atları ilə də dünyada məşhurdur. Bir vaxtlar sorağı Londondan gələn Dilbaz atları bu mahala şan-şöhrət, başucalığı gətirmişdir. Dilbaz atları ilə fəxr edən xalq şairi Osman Sarıvəlli çox haqlı olaraq yazmışdır:

*Kim minir Qazağın Dilbaz atını,*
*Götürür toyların şal-xalatını,*
*Şerin-sənətin mükafatını,*
*Hər zaman, hər yerdə aldı bu yerlər.*

Muzeydə 15 dəfə ümumittifaq atçılıq yarışının qalibi, idman ustası Firudin Yaqubova da ayrıca guşə həsr edilmişdir.

Türk dünyasının böyük oğlu, görkəmli ictimai-siyasi xadim, dünya şöhrətli siyasətçi, ulu öndərimiz, ümummilli liderimiz, əbədiyaşar prezidentimiz Heydər Əliyev bir neçə dəfə rayonumuzda olmuşdur. Qazağın inkişafı, abadlığı Heydər Əliyevin adı ilə bağlıdır.

Ağstafaçay üstündəki əzəmətli dəryaça, Səməd Vurğun Poeziya evi, inzibati idarə və yaşayış binalarının, məktəb və xəstəxanalarının, mədəniyyət evlərinin böyük əksəriyyəti Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə inşa edilmişdir. 1979-cu ildə Qazax rayon zəhmətkeşləri ilə görüşündə Heydər Əliyevin dediyi: "Azərbaycanın iqtisadiyyatında və mədəniyyətində Qazax rayonunun xüsusi yeri vardır" və 1998-ci ildə yenə Qazax rayon sakinləri ilə görüşü zamanı dediyi; "Siz əziz qazaxlılar, burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız". Dünya şöhrətli rəhbərin Qazağa gəlişinə xüsusi güşə ayrılmış, onun rayonumuz haqqında dediyi məşhur kəlamlar muzeydə öz əksini tapmışdır.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı hörmətli prezidentimiz İlham Əliyev cənabları iki dəfə rayonumuzda olmuşdur. Cənab prezidentimizin və rayon İcra Hakimiyyətinin başçısı Rauf Hüseynovun qayğısı sayəsində Qazax günü-gündən öz simasını dəyişir, yeniləşir və gözəlləşir. Muzeydə "Qazax müstəqillik yollarında" son illərdə görülən işlərin ekspozisiyası tam şəkildə öz əksini tapmışdır.

Muzeydə hərbi-vətənpərvərlik işinə də xüsusi diqqət yetirilir. Beləki, muzeydə Qarabağ müharibəsinə, rayonumuzun şəhidlərinə, Milli Qəhrəmanlarına, 20 Yanvar, Xocalı faciələrinə dair geniş tərtibatlı guşə yaradılmışdır.

Muzeydə "Kitabi-Dədə Qorqud - 1300", "Qazax Müəllimlər Seminariyası - 80", "Aşıq Ədalət - 60", "Səməd Vurğun - 100", "Min Qazaxda köhlən ata..." Qazaxda keçirilmiş respublikanın I atcılıq sərgisinə həsr olunmuş guşələr də muzeyə gələnlərdə xoş təəssüratlar yaradır.

Qazax Tarix-Diyarşünaslıq muzeyi ildən-ilə zənginləşir. Muzeyin işçilərindən Xəyalə Mustafayeva, Könül Mirzəyeva, Aynur Qasımova, Mələk Mahmudova, Sevda Məmmədova, Kamilə Əhmədova və başqaları buraya gələnlərə xalqımızın və doğma diyarımızın, o cümlədən Qazağın keçmişini və indisini eksponatların dili ilə izah edirlər. Muzeydəki əşyalar sübut edir ki, Qazax ən qədim Oğuz yurdu, türk torpağıdır. Muzeydə həmçinin nadir fotolar, əlyazmalar, sənədlər, kitablarla yaxından tanış olmaq, keçmişimiz haqqında məlumat əldə etmək olar.

Bizimlə söhbət zamanı, muzeyin direktoru Gülnaz Alışanova qeyd etdi ki, Qazax mahalı çox qədim tarixə malik yaşayış yeri olub, əski abidələrlə, nadir memarlıq inciləriylə zəngindir. Qazağın hər daşında, kərpicində canlı bir tarix yatır. Odur ki, biz muzeyin əməkdaşları axtarış və tapıntıları davam etdiririk. Muzeyi tarixi eksponatlarla daha da zənginləşdirməyə çalışırıq. Axı, xalqın tarixi müvəffəqiyyətlərinin, zəkasının və hünərinin bəhrəsini nəsildən-nəsilə bu muzeylər təqdim etmirmi? Azərbaycanın xalq şairi, qüdrətli söz ustası, sənət peyğəmbərimiz Səməd Vurğun demişkən;

*Kim bilir dünyanın neçədir yaşı?*
*Tarixin nə qədər yazısı vardır.*
*Hər saxsı parçası, hər məzar daşı,*
*Nəsildən-nəsilə bir yadigardır.*

**Kazım KAZIMLI,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**